

# Sumqayıt ictimaiyyətinin yeni aktiv üzvü - «SOCAR Polymer»



SOCAR POLYMER

# «SOCAR Polymer» MMC

## Qısa müqəddimə

# BİZ KİMİK

- 2012-ci ilin 29 dekabr tarixində Prezident İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının həyata keçirilməsi çərçivəsində 2013-cü ildə icrasına başlanılmış bir layihə;
- Ən müasir neft-kimya istehsalatı müəssisəsi;
- Dövlət-özəl sektor tərəfdaşlığının uğurlu modeli;
- 16 ölkəni təmsil edən mütəxəssislərdən ibarət olan və dünya miqyasında rəqabət apara bilən PP və YSPE markaları istehsal etmək üçün ən qabaqcıl avadanlıq, təcrübə və texnologiyalardan istifadə edən beynəlxalq kollektiv.



# BİZ NƏ EDİRİK

PP və YSPE zavodlarının açılışı müvafiq olaraq 2018-ci ilin iyul və 2019-cu ilin fevral aylarında baş tutmuşdur.

**İldə**

**184000** **ton**

**Polipropilen**

**120000** **ton**

**Yüksəksıxlıqlı polietilen**





# BİZİM MİSSİYAMIZ

# Fəaliyyət göstərən müəssisə olaraq bizim missiyamız

- Azərbaycanın qeyri-neft sektorunun inkişafını stimullaşdırmaqdan;
- Daxili bazarın tələbatını qarşılamaqdan;
- İdxaldan asılılığı aradan qaldırmaqdan;
- Ölkə büdcəsinə gəlir gətirən iri ixrac müəssisəsinə çevrilməkdən;
- Milli iqtisadiyyatda multiplikasiya effekti yaratmaqdan;
- İnsan kapitalının inkişafına və cəmiyyətin rifahının artmasına dəstək verməkdən ibarətdir.



# Dövlət-özəl sektor tərəfdaşlığı olaraq missiyamız

- İşçilərimiz üçün təhlükəsiz və əlverişli iş şəraiti yaratmaqdan;
- Sumqayıt sakinlərinə yeni iş imkanları təklif etməkdən;
- Ən yüksək texnologiyalarla bağlı cəlbedici karyera imkanları təklif etməkdən ibarətdir.



# YERLİ İCTİMAİYYƏTLƏ BAĞLI MİSSİYAMIZ

- Bu yaşayış ərazisində formalaşmış mühitin qorunub saxlanmasından (**qeyd:** *ekologiyaya aid olmayan məsələlər də daxil olmaqla ətraf yaşayış məntəqələrdə formalaşmış əhali mühiti nəzərdə tutulur);*
- Bu yaşayış ərazisində formalaşmış mühiti yaxşılaşdırmaq məqsədi ilə Sumqayıt ictimaiyyəti ilə əməkdaşlıq etməkdən;
- Müəssisədəki fəaliyyət haqqında əhalinin məlumatlandırılması və yeni iş imkanlarının yaradılmasından ibarətdir.





SOCAR POLYMER

# BİZİM SƏTƏM SİYASƏTİMİZ

# SƏTƏM

- Bütün istehsalat əməliyyatlarında və gündəlik fəaliyyətimizdə təhlükəsiz texnikası qaydalarına ciddi riayət edirik;
- Biz qüvvədə olan bütün qanunların, qaydaların və normativ aktların tələblərinə ciddi riayət edirik;
- Şirkətimizdə kimyəvi maddələrlə bağlı risklər daxil olmaqla müxtəlif risklərin qiymətləndirilməsi aparılır. Əldə edilən nəticələr geniş məlumat bazasında saxlanılır.



Bizim şüarımız:

Qəzasız, xəsarətsiz və ətraf mühitə ziyan vermədən işləyək!

EQUATOR PRINCIPLES

- «SOCAR Polymer» zavodları ən qabaqcıl beynəlxalq ekoloji prinsiplər əsasında inşa edilmiş və sınanmış texnologiyalardan istifadə edərək fəaliyyət göstərir;
- Layihəmizi təkmilləşdirmək məqsədi ilə şirkətimiz ətraf mühit parametrlərinin qiymətləndirilməsi aparır və istənilən mənfi ekoloji və sosial təsirlərin qarşısının alınması, onların minimuma endirilməsi və ya vurulan ziyanın əvəzinin ödənilməsi üçün əlindən gələni edir;
- Sabit inkişafa olan münasibətimiz təhlükəsiz, səmərəli, etibarlı və gəlirli müəssisə yaradıb istismar etməklə başlayır.



# «SOCAR Polymer» zavodlarında karyera qurmaq imkanları

# və

# işə düzəlmək üçün necə ərizə vermək olar

# «SOCAR Polymer»də karyera

https://www.socarpolymer.az/az/career/




"SOCAR Polymer" istedadlı şəxsləri şirkətdə işləməyə dəvət edir və onların işə götürülməsi üçün əlverişli şərait yaradır. İstər tələbə olun, istər yeni məzun, istərsə də təcrübəli peşəkar, öz karyera inkişafınızın yeni pilləsinə qalxmaq üçün sizə verilən bu gözəl imkanı dəyərləndirməyə tələsin!

Namizədlərin şirkətdə işə qəbulu yalnız onların kvalifikasiyası, peşəkar bacarıqları və şirkətin tələblərinə müvafiqliyi əsasında həyata keçirilir. Əgər siz Azərbaycanın neft-kimya sənayesini gələcəyə aparan şirkətdə işləmək və novator olmaq istəyirsinizsə, əgər siz regiondakı iki ən müasir, nəhəng və yeni imkanlar yaradan zavodun yüksək səviyyəli peşəkar kollektivinə qoşulmaq arzusundasınızsa, onda bu şirkət – sizin ən yaxşı seçiminizdir!

Nəzərə alın ki, burada göstərilən möhlətlər təqribi xarakter daşıyır. Belə ki, daxil olan ərizələrin həcminin böyük olması işəgötürmə prosesinin bir qədər çox davam etməsinə gətirib çıxara bilər. Nə "SOCAR Polymer"in özü, nə də bizim adımızdan işə götürməklə məşğul olan istənilən digər təşkilat ərizələrin qəbulu və işlənməsi prosesində ərizə verən şəxslərdən heç bir nağd pul və ya digər ödəniş tələb edə bilməz. Bizdən birbaşa və ya dolayı iş təklifi alan istənilən şəxs işəgötürmə prosesini tam olaraq keçməlidir.



Təcrübəli peşəkar kadrlar



İstehsalat praktikası proqramı



Texniklər üçün ixtisasartırma



SOCAR POLYMER

# Təcrübəli personalın işə götürülməsi prosesi

**Ərizələrin verilməsi qaydası**
Bizim veb-saytımızın «Karyera» səhifəsində istifadəçi profili açın və müşayiət məktubla birgə ora öz tərcümeyi-halınızı (CV) yükləyin.

**İlkin seçmə mərhələsi**
Seçilən tərcümeyi-hallar xətti menecerlərə göndərilir və onlar müsahibəyə dəvət olunacaq namizədləri müəyyən edir.

**Müsahibənin keçirilməsi**
Vəzifədən asılı olaraq müvafiq şöbələrin nümayəndələri ilə 2-3 müsahibə ola bilər.

**İş təklifi**
Seçim prosesindən uğurla keçən namizədlər müvafiq şöbə menecerinin və Kadrlar şöbəsinin nümayəndələrinin verdikləri tövsiyələr əsasında şirkətdə işləmək üçün təklif alır.



https://socarpolymer.az/az/career/

# Təcrübəçilərin işə götürülməsi prosesi

**Ərizələrin verilməsi qaydası**
Siyahıdan tələb olunan sahəni/ixtisası seçin, «onlayn» ərizə formasını doldurun və ona tərcümeyi-halınızı (CV) əlavə edin.

**İngilis dili imtahanı**
Seçilən namizədlər ingilis dili biliklərini müəyyən edən imtahan verəcək.

**Qabiliyyət imtahanı**
Namizədlərin bilik və bacarıqları «onlayn» imtahan vasitəsi ilə müəyyən edilir.

**Müsahibənin keçirilməsi**
Müsahibədə namizədlərə ümumi mövzulardan tutmuş barəsində ərizə verilən konkret ixtisas üzrə müxtəlif suallar verilir.

**İş təklifi**
Seçim prosesindən uğurla keçən namizədlər müvafiq şöbə menecerinin və Kadrlar şöbəsinin nümayəndələrinin verdikləri tövsiyələr əsasında şirkətdə təcrübə qismində işləmək üçün təklif alır.

# GÖRÜŞÜN ƏSAS MÖVZUSU:

# **YERLİ İCTİMAİYYƏTLƏ TƏMASIN YARADILMASI VƏ ƏLAQƏLƏRİN QURULMASI**

# YERLİ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏRİN QURULMASI

2018-ci ilin iyul ayının ortalarında özünün yeni zavodunu istismara verən «SOCAR Polymer» Sumqayıt ictimaiyyətinin yeni aktiv üzvünə çevrilir.



Sumqayıt ictimaiyyətinin bir hissəsi olaraq biz:

- həmin ictimaiyyətin bütün üzvləri ilə əlaqələr qurmaq və
- yaşadığımız mühiti inkişaf etdirmək üçün birgə fəaliyyət göstərmək istərdik.

# «SOCAR Polymer» Sumqayıt ictimaiyyətinin bir hissəsinə necə çevrilə bilər?

- Yerli ictimaiyyətlə müntəzəm görüşlər keçirməklə;
- «SOCAR Polymer»lə rahat əlaqə saxlamaq üçün imkanlar təmin etməklə.

# Yerli ictimaiyyətlə müntəzəm görüşlərin keçirilməsi

## Məqsəd

- Yerli ictimaiyyətə «SOCAR Polymer»in fəaliyyətinin və şirkətin daxilində baş verənlər, habelə gələcək layihələr haqqında  məlumatların verilməsi;
- Həmin layihələrin yerli əhaliyə/ictimaiyyətə göstərə biləcəyi təsirlərin və onların aradan qaldırılması yolları haqqında məlumatların verilməsi;
- «SOCAR Polymer» yerli ictimaiyyətdəki vəziyyəti necə yaxşılaşdıra bilər? Bu barədə yerli ictimaiyyətdən müvafiq rəylərin əldə edilməsi.

## Bunu necə etmək olar

- Bu kimi görüşlərin müntəzəm olaraq keçirilməsi (ildə iki dəfə);
- Dialoq formasında qurulan görüşlər: İctimaiyyətin vəziyyətini necə düzəltmək olar mövzusunda fikir mübadiləsi.

# «SOCAR Polymer»lə rahat əlaqə saxlamaq üçün imkanlarının təmin olunması

# Bizimlə əlaqə saxlamaq üçün aşağıdakı əlaqə rekvizitlərindən istifadə edin

Bizim e-mail: ecology@socarpolymer.az




Telefon: +99412 404 53 30

Faks: +99412 497 04 36

E-mail: ecology@socarpolymer.az



SOCAR POLYMER

# Bizimlə əlaqə saxlamaq üçün elektron poçt (e-mail) ünvanından istifadə edilir

## Nə vaxt

**Sizin aşağıdakı mövzularla bağlı istənilən təklif, mülahizə, şərh və ya şikayətiniz olduqda:**

- «SOCAR Polymer» istehsalat fəaliyyəti;
- «SOCAR Polymer»in yerli yaşayış ərazisinə/ictimaiyyətə göstərdiyi təsir;
- «SOCAR Polymer»in yerli ictimaiyyətin həyatında iştirak etməsi.

## Bunu necə etmək olar:

**Elektron poçt ünvanımıza (e-mail) elektron məktub göndərməklə.**

- «SOCAR Polymer» müraciətlərə 72 iş saat ərzində cavab verməyi öhdəsinə götürür.

# QAYNAQ XƏTT
# Mobil telefon/ Stasionar xətt

- Mobil telefon: (+994 51) 255 66 44
- Stasionar xətt: (+994 12) 404 53 30, daxili nömrə 2119

# Qaynar xətdən aşağıdakı hallarda istifadə edin:

- «SOCAR Polymer»in cari/gündəlik fəaliyyəti ilə bağlı narahatlıq yaradan istənilən məsələləri qaldırmaq istədiyiniz halda;
- ictimaiyyət və ya fərd olaraq ictimaiyyətin və ya ayrı-ayrı şəxslərin istənilən məsələlərini «SOCAR Polymer»in diqqətinə çatdırmaq istədiyiniz halda;
- «SOCAR Polymer»in fəaliyyəti nəticəsində yerli əhalinin sağlamlığı, əmək təhlükəsizliyi və rifahı ilə bağlı tez-tez təkrar olunan və narahatlıq yaradan istənilən məsələləri qaldırmaq istədiyiniz halda;
- «SOCAR Polymer»in yerli əhalinin sağlamlığı, əmək təhlükəsizliyi və rifahı ilə bağlı fəaliyyətinin yaxşılaşdırılmasına dair istənilən təkliflər vermək istədiyiniz halda.



SOCAR POLYMER

# BİZİMLƏ AŞAĞIDAKI QƏZA NÖMRƏLƏRİ İLƏ ƏLAQƏ SAXLAYIN:

- Mobil telefon: (+994 51) 255 66 44
- Stasionar xətt: (+994 12) 404 53 30, daxili nömrə 2119

# Qəza nömrələrindən aşağıdakı hallarda istifadə edilir

## Nə vaxt:

- (təqdimatın auditoriyasından asılı olaraq: əhali, səlahiyyətli orqan və s.) tərəfindən aşkar edilən və
- «SOCAR Polymer»in dərhal müdaxiləsini tələb edən hallarda, məsələn,

**əməyin təhlükəsizliyini və ya ətraf mühiti təhdid edən hallar baş verdikdə, və ya digər təhlükə ortaya çıxdıqda.**

Görüşə gəldiyiniz, bizi diqqətlə dinlədiyiniz və fəal iştirak etdiyiniz üçün

sizə

öz təşəkkürümüzü bildiririk!